**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ adına ƏDƏBİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

NƏRGİZ MƏRDAN QIZI ABDULLAYEVA (CABBARLI)

# ÇAĞDAŞ AZƏRBAYCAN ŞEİRİNİN İNKİŞAF MEYİLLƏRİ

# (1993-2005-CI ILLƏR)

5716.01 -Azərbaycan ədəbiyyatı

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI - 2015**

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunun Müasir Azərbaycan ədəbiyyatı şöbəsində yerinə yetirlimişdir.

**Elmi rəhbər:** **Akif Məmməd oğlu Hüseynov**
filologiya üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Rəhim Nadir oğlu Əliyev**
filologiya üzrə elmlər doktoru

**Rüstəm Kamal oğlu Rəsulov**
filologiya üzrə fəlsəfə doktoru

**Aparıcı təşkilat:** Bakı Dövlət Universiteti
"Müasir Azərbaycan ədəbiyyatı" kafedrası

Müdafiə "_21___" ____04_____ 2015-ci il tarixdə saat _____ da Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən D.01.131 – Dissertasiya şurasının iclasında keçirələcək.

**Ünvan:** Az-1143, Bakı, H.Cavid prospekti 115, AMEA Nizami adına Ədəbiyyat İnstitutunun Elektron Akt zalı (IV mərtəbə)

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat ______________ 2015-ci ildə göndərilmişdir.

D.01.131. - Dissertasiya
Şurasının elmi katıbi,
filologiya üzrə elmlər doktoru,
professor:

**İmamverdi Yavər oğlu Həmidov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.**Azərbaycanda baş verən azadlıq uğrunda mücadilə, dövlət müstəqilliyinin elan edilməsi, müharibə faktı bütün sahələr kimi ədəbiyyata və ədəbi prosesə də öz təsirini göstərmişdir. Hadisələrin başladığı ilk dövrlərdə meydana çıxan xaotik vəziyyət bədii mətndə çaşqınlıq əhval-ruhiyyəsi, ekstremal hallar üçün qanunauyğun olan pafos və çılğın emosiyalarla ifadə olunsa da, bir qədər sonra özünü "çöküş ovqatı"nin təsviri şəklində göstərdi. 90-cı illərin əvvəllərində yaranan senzurasızlıq mühiti, milli-ideoloji oyanış, milli və kosmopolit düşüncələrin toqquşması ədəbiyyatda da yeni yaradıcılıq meyillərinin oyanmasına, yeni ədəbi qrupların, birliklərin meydana çıxmasına səbəb oldu: məzmun qatında görünən dekadans ovqatdan stilistik qatda aparılan eksperimentlərə keçid edildi. Forma-struktur və poetik ifadə sistemində dəyişikliklər əldə olunması üçün fərqli üsullara müraciət olundu. Müxtəlif ədəbiyyatlarda yaşanmış və artıq arxada qalmış ədəbi cərəyanlar Azərbaycan ədəbi mühitində "oyanma" mərhələsi yaşadı.

Müstəqillik illərindən başlayaraq Azərbaycan poeziyasında meydana çıxan tendensiyalar, mövzu, problematika dəyişikliyi, poetik axtarışlar sahəsində əldə edilən yeni nəticələr bir sıra elmi işlərin, monoqrafiyaların mövzusuna çevrilib. Lakin poeziya daha çox azadlıq mücadiləsi, şəhidlik və Qarabağ problemi rakursundan araşdırılıb; Ötən əsrin sonlarından başlayaraq əsrimizin əvvəlləri də daxil olmaqla poeziyada gedən proseslər, meydana çıxan yaradıcılıq təmayülləri, dünyada və ölkədə baş verən qlobal hadisələrin ədəbiyyatımıza mövzu, ideya, poetik axtarışlar baxımından göstərdiyi təsir ya təhlil edilməyib, ya da ayrı-ayrı elmi-nəzəri ədəbiyyatda ötəri xarakterli qeydlərlə yada salınıb. Halbuki 1990-cı illər Azərbaycan cəmiyyəti kimi ədəbiyyatı üçün də tarixi əhəmiyyətli mərhələ idi. Estetik prinsiplər, dünyagörüşləri dəyişirdi. Sövet dövrünün ədəbiyyat və sənət qarşısında qoyduğu tələblər də, zövqlər də, ədəbiyyata ideoloji yanaşmanın prinsipi də dəyişmişdi.

Bu dövr şeirdə bir neçə təmayül öz mövcudluğunu göstərdi, ədəbi qruplar, onların estetik prinsiplərini ifadə edən manifestlər yarandı. Çağdaş şeir dekadans mərhələniadlayaraq dövrün çöküş əhval-ruhiyyəsini uğurla ifadə etdi. Avanqard, modernist poeziya nümunələri yaradıldı. Postmodernizm ədəbiyyatın digər sahələrində olduğu kimi, poeziyada da öz ilkin təzahürlərini nümayiş etdirdi. Çağdaş şeir təkcə məzmun-ideya qatı ilə

deyil, stilistik cəhətdən də eksperimentlərə məruz qaldı, poetik ifadə sisteminin yenilənməsi prosesi baş verdi. Xüsusilə avanqard, modernist və postmodernist təmayüllər çağdaş şeirə "şapalaq effekti"nin tətbiqinə, müasir dövr insanının həyata, özünə, fakta, mətnə ironik münasibətinin ifadəsinə nail oldu. Bu problemlər aparılan tədqiqatlardan kənar qaldığı üçün çağdaş poeziyanın ümumi hərəkət dinamikası, inkişaf mənzərəsi və bu mənzərənin meydana çıxartdığı xarakterik xüsusiyyətlər tam şəkildə müəyyən edilməmiş görünür. Bu dissertasiya işi 1993-2005-ci illəri əhatə etsə də, müstəqillik illərindəçağdaş Azərbaycan şeirinin inkişaf meyillərini, poeziyanın inkişaf prosesində uğradığı dəyişiklikləri, meydana çıxan yeni yaradıcılıq təmayüllərini, ədəbi qruplar və elan edilən manifestlərin prosesdə oynadığı rolu, göstərdiyi təsiri müəyyən etmək və qənaətləri ümumiləşdirmək baxımından aktuallıq kəsb edir.

**Tədqiqatın obyekti və predmeti.**Tədqiqatın obyekti 1993-2005-ci illər şeiri, M.Araz, B.Vahabzadə, F.Qoca, C.Novruz, F.Sadıq, R.Rövşən, V.Səmədoğlu, V.B.Odər, M.İsmayıl, Salam, R.Behrudi, R.Qaraca, Z.Əzəmət və s. şairlərin yaradıcılığı, predmeti isə çağdaş şeirin problemləri və inkişaf meyillərinin tədqiqini əhatə edən elmi-nəzəri məqalələr, monoqrafiyalar, təsqiqat işləridir.

**Tədqiqatın nəzəri və metodoloji əsasları.**Tədqiqat işi çağdaş Azərbaycan şeirinin inkişaf meyillərinin öyrənilməsində müqayisəli-tarixi təhlil metoduna əsaslanmaqla aparılmışdır. Dissertasiyanı yazarkən mövcud ədəbi-nəzəri materiallardan və dünya ədəbiyyatşünaslığının elmi-nəzəri fikrindən istifadə edilmişdir.

**Mövzunun işlənmə dərəcəsi.** Çağdaş Azərbaycan şeirinin inkişaf meyilləri müxtəlif zamanlarda tədqiqə cəlb edilmiş, müxtəlif elmi qənaətlər ortaya qoyulmuşdur. Əsas tədqiqat istiqaməti konkret şairlərin yaradıcılığının tədqiqi [1] ,Qarabağ müharibəsi və poeziya [2] , Qarabağ müharibəsi və nəsr[3], çağdaş poeziya və klassik irs[4], çağdaş poeziya və milli azadlıq duyğuları[5], mövzu, janr və üslub problemləri[6], şeirin müxtəlif

---

[1]Həbibbəyli İsa. Məmməd Araz. Bakı, 2001; Yusifli Vaqif. Məmməd Araz dünyası. Bakı. "Şur", 1994

[2]Nəcəfova Mərziyyə. Poeziya və Qarabağ problemi. Bakı, 2001.

[3] Mehrəliyev Elçin. Müharibə və ədəbiyyat. Bakı. Azərnəşr, 2000.

[4] Əliyeva Gülşən. Çağdaş Azərbaycan poeziyası və klassik irs. Azərnəşr, 2000. 172 səh.

[5]Binnətova Almaz. Poeziyada milli azadlıq duyğuları. Bakı. Ağrıdağ, 1997; Əliqızı Almaz. Azadlıq və istiqlal poeziyası. Bakı. BakıUniversiteti Nəşriyyatı, 2001.

[6]Əbdülhəsənov Tofiq Əbdüləziz oğlu. Müasir Azərbaycan poeziyası: mövzu, janr və üslub problemləri (1991-2005). Bakı, 2011. Əlyazması hüququnda. Avtoreferat. 50 səh.; Əliyev

mərhələlərdə dəyərləndirilməsi[7], yaradıcılıq meyillərinin dəyərləndirilməsi[8] müxtəlif elmi məqalələrlə təhlili[9], ədəbi prosesin problemlərinin dəyərləndirilməsi[10] s. olmuşdur. Lakin dövlət müstəqilliyi əldə olunduqdan sonra Azərbaycandagedən ictimai-siyasi proseslərin dönüş məqamı məhz 1993-cü ildə reallaşan hakimiyyət dəyişikliyindən sonra olmuş, ölkədə tarixi əhəmiyyətli hadisələr baş vermişdir. Ümumiyyətlə, 1990-cı illər Azərbaycan tarixi üçün də, ədəbiyyatı üçün də hadisələrin dinamik inkişafı, keyfiyyət dəyişimi ilə xarakterizə olunur. İki əsrin qovuşacağında yalnız siyasi quruluş deyil, estetik yanaşmalar da dəyişimə uğramışdı. Dünyada və ölkədə gedən qlobal hadisə və proseslərin çağdaş Azərbaycan şeirinə hansı ideya-məzmun yeniliklərinin gətirdiyi, poetik axtarışlarda hansı səciyyəvi xüsusiyyətlərin müəyyən olunduğu ilk dəfə ümumiləşdirilir. Dövrün əsas təmayülləri kimi meydana çıxan avanqard, modernist, postmodernist şeirin stilistik xüsusiyyətləri, dekadans ovqatının ifadə və təsvir metodlarına göstərdiyi təsir, şeirin poetik ifadə sisteminin formalaşmasında ənənə və novatorluğun rolu, simvol və bədii detalın bu sistemdə yeri ilk dəfə olaraq sistemli şəkildə tədqiq edilir. Dövrün poeziyasının xarakterik xüsusiyyətlərini öz yaradıcılıqlarında təmsil edən şairlərin bədii mətnləri araşdırılır, nümayəndəsi olduqları təmayüllər müəyyənləşdirilir. Elan etdiyi manifestlərdə qarşıya qoyduqları estetik tələblərə uyan və uymayan ədəbi qruplar, onların yaradıcılıqları təhlil edilir, özünü təsdiqləyən və heç bir estetik konsepsiyası olmadığından yalnız ədəbi məclis səviyyəsində qalan birliklərlə bağlı qənaətlər ümumiləşdirilir.

---

Rəhim. Ədəbiyyat nəzəriyyəsi. Bakı. Mütərcim, 2008, 360 səh.Əlizadə Əsgərli. XX əsr Azərbaycan şeirinin poetikası. Bakı, 2014. 316 s.

[7] Alışanov Şirindil. Sözün estetik yaddaşı. Bakı. Elm, 1994. 226 səh; Əlişanoğlu Tehran, Müstəqillik illəri Azərbaycan ədəbiyyatı. Bakı, 2013. 216 səh.; Yusifli Vaqif. Poeziyanın yolları və illəri (1960-2000-ci illər). Bakı. Mütərcim, 2009. 404 s.; Zaurlu B. Poeziyanın inkişaf yolları. Bakı. Ozan, 1997.

[8] Qasımov Himalay. Müasir Azərbaycan ədəbiyyatında yaradıcılıq meyilləri. Bakı. Elm, 1998. 306 səh.; Quliyev Tofiq. Ədəbiyyatda realizm və modernizm problemləri. Bakı. Nağıl evi, 2006; Quliyev Qorxmaz. Postmodernizm.//"e-Dalğa" şəbəkə dərgisi. II sayı. Kulturalogiya. "Postmodernizm" elmi, kulturoloji, ədəbi-tənqidi yazılar toplusu. 72 səh.; Mehdi Niyazi. Azərbaycan postmodernizminə giriş. Postmodernizm və "plyuralizm" anlayışında nəyi unutmuşuq.//"e-Dalğa" şəbəkə dərgisi. II sayı. Kulturalogiya. "Postmodernizm" elmi, kulturoloji, ədəbi-tənqidi yazılar toplusu. 72 səh.; Şəmsizadə Nizaməddin. Ədəbiyyat nəzəriyyəsi. Bakı. Proqress, 2012. 434 səh.

[9] Yusifli Cavanşir. Zaman ötən şeirlər sorağında.//Ulduz jurnalı. 1997, №1, s.58-62; Cahangir Əsəd, "Minillərin ayrıcında". "Ədəbiyyat qəzeti", 3 dekabr, 2003

[10] Elçin. Azərbaycan ədəbi mühitində nə baş verir.//Azərbaycan, №10, 2009, s.3-22

Xüsusilə çağdaş şeirin bədii ifadə sistemində bədii detalın rolu indiyə qədər əhatəli araşdırılmadığından elmi aktuallıq kəsb edir.

**Tədqiqatın məqsəd və vəzifələri**1993-2005-ci illər Azərbaycan şeirinin inkişaf meyillərini araşdırmaqdan, şeirin ideya-məzmun və forma cəhətdən uğradığı dəyşiklikləri aydınlaşdırmaqdan, qarşıya çıxan ədəbi problemlərin müəyyənləşdirilməsindən, yeni yaranmış yaradıcılıq təmayüllərinin təhlilindən, poetik ifadə sisteminin formalaşmasında ənənə və novatorluğun rolunun göstərilməsindən ibarətdir. Bütün bunlar konkret faktlar – bədii nümunələr əsasında sistemli şəkildə tədqiq edilib. Aşağıdakı məsələləri öyrənməyi qarşımıza məqsəd qoymuşuq:

- 1993-2005-ci illər şeirində ideya-məzmun dəyişikliklərini öyrənmək;
- qlobal hadisə və proseslərin bu dəyişimdə rolunu dəyərləndirmək;
- məzmunun əsas komponentlərini müəyyənləşdirmək və dünya ədəbiyyatşünaslığında bu problemlə bağlı mövcud elmi-nəzəri fikri müqayisəli təhlil əsasında dəyərləndirmək;
- çağdaş şeirdə meydana çıxan yeni yaradıcılıq təmayüllərini müəyyən etmək;
- ədəbi qrupların və onların estetik prinsipləri elan edən manifestlərinin ədəbi prosesdə yerini və əhəmiyyətini dəyərləndirmək;
- dekadans, avanqard, modernist və postmodernist poeziyanın mövcudluğu faktını konkret nümunələr və təhlillər əsasında göstərmək;
- poetik ifadə sistemində meydana çıxan səciyyəvi xüsusiyyətləri ənənəvilik və novatorluq prinsipləri əsasında araşdırmaq;
- poetik ifadə sisteminin yeniləşməsi prosesində eksperimentlərin oynadığı rolu və keyfiyyətidəyərləndirmək;
- poetik ifadə sistemində simvol və bədii detal yaradıcılığının aktuallığını təmin edən səbəbləri araşdırmaq.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycan şeirinin inikşaf meyilləri müxtəlif tarixi dövrlərdə mərhələlərlə tədqiq edilmişdir. Xüsusilə 1940-50-ci illər, 1960-70-ci illər və s. bölgü əsasında aparılan tədqiqat işləri, dissertasiyalar, elmi icmallar mövcuddur ki, onlar əsasında Azərbaycan şeirinin mərhələli inkişaf dinamikasını izləmək mümkündür [11]. Ədəbiyyatşünaslığımızın inkişafının müasir mərhələsində isə 1993-2005-ci illər ərəfəsində şeirdə baş verən dəyişikliklərin, dünyada gedən hadisə və proseslərin Azərbaycan şerinə təsirinin, ideya-məzmun yeniliklərinin,

[11] Alışanov Şirindil. Ədəbi tarixi mif və XX əsr poeziyasının müasir dərki problemi// AMEA-nın Məruzələri. 2006, №2. s.110-115; Alışanlı Şirindil. Ədəbi-nəzəti fikrin tarixiliyi və müasirliyi. Bakı. Elm, 2013. 404 səh.; Əliyev Rəhim. Şeirin illəri və problemləri.// Poeziyanın təbiiliyi. Bakı. Yazıçı, 1982, 90 səh.;

poetik axtarışların səciyyəsi xüsusiyyətlərinin araşdırılmasına ehtiyac vardır. Yeni yaradıcılıq təmayyülərinin öyrənilməsi zəruridir.

**Tədqiqatın nəzəri-təcrübi əhəmiyyəti.** Dissertasiyadan ali məktəblərin filologiya fakültələrinin tələbə və magistrləri, Azərbaycan dili və ədəbiyyatı müəllimləri, tənqidçilər, çağdaş Azərbaycan şeirinin vəziyyəti, inkişaf meyilləri ilə maraqlananlar istifadə edə bilərlər. Tədqiqat işindən eyni zamanda filologiya fakültəsində bir sıra xüsusi kurslarda dərs vəsaiti kimi də istifadə edilməsi mümkündür.

**İşin aprobasiyası.**Dissertasiyanın mövzusu AMEA Nizami adına Ədəbiyyat İnstitutunun Elmi Şurası tərəfindən təsdiq olunmuş və həmin İnstitutun Müasir Azərbaycan ədəbiyyatı şöbəsində yerinə yetirilmişdir. İşin əsas müddəaları ayrı-ayrı jurnal və məcmuələrdə [12], müəllifin kitablarında çap olunmuş[13], beynəlxalq konfrans materiallarında tezis və məqalələr şəklində[14]dərc edilmişdir. Dissertasiya müəllifinin həm elmi işin mövzusu, həm də çağdaş poeziya ilə bağlı məqalələri elmi-tənqidi ədəbiyyatda fil.e.d. Elçin Əfəndiyev[15], fil.e.d. Rahid Xəlilov[16], fil.e.d.Vaqif Yusifli [17] kimi tənqidçilər tərəfindən müsbət dəyərləndirilmiş və təhlil edlilmişdir.

---

[12] Cabbarlı Nərgiz. Poeziya, 2006.//Azərbaycan jurnalı. 2007, №2. s.196-200; Cabbarlı Nərgiz. Yeni nəsil poeziyası.//Azərbaycan. 2004, №8. s.148-169; Cabbarlı Nərgiz. Yeni yaradıcılıq təmayülləri, ədəbi qruplar və avanqard poeziya.//Azərbaycan jurnalı. №1, 2015. s.163-72; Modernist-eksperimental şeir və çağdaş poeziyada "neomodern dalğası".// Azərbaycan. №12. 2014. s.180-191

[13] Cabbarlı Nərgiz. Yeni nəsil ədəbiyyatı. Bakı. Elm, 2006. 456 səh.; Cabbarlı Nərgiz. Yeni nəsil ədəbiyyatı-2. Bakı. Qanun, 2008. 220 səh.; Abdullayeva Nərgiz (Cabbarlı). XXI əsr Azərbaycan şeiri dünya ədəbiyyatı kontekstində - ənənə və yeni təmayüllər// "Kazan - türk dünyasının mədəniyyət paytaxtıdır" forumu çərçivəsində "Türk xalqlarının ədəbiyyatı və musiqisinin təkamül tarixi" beynəlxalq elmi-praktik konfransı. Q.İbrahimov adına Dil, Ədəbiyyat və İncəsənət Akademiyası. Tatarıstan, 23-24 sentyabr. s.24-26; Cabbarlı Nərgiz (Abdullayeva). Qlobal tarixi hadisə və proseslərin Azərbaycan şeirinə təsiri. Bakı Slavyan Universiteti. "Müqayisəli ədəbiyyat: ədəbiyyat və mədəniyyətlərdə istoriqrafiya: mif, ədəbiyyat və tarix arasında". 20-21 dekabr, 2013. s.86-87

[14] Abdullayeva Nərgiz (Cabbarlı). Qlobal hadisə və proseslərin Azərbaycan şeirinə təsiri.//Azərbaycan xalqınını ümumilli lideri Heydər Əliyevin anadan olmasının 91-ci il dönümünə həsr olunmuş Gənc Tədqiqatçıların II Bynəlxalq Elmi Konfransı materialları. 18-19 aprel, 2014. Bakı, Qafqaz Universiteti. s.275-276 (tezislər);

[15]Elçin. Azərbaycan ədəbi mühitində nə baş verir.//Azərbaycan, №10, 2009, s.3-22

[16]Xəlilov Rahid (Ulusel), "Tənqidin fenomenologiyası"ndan Azərbaycan tənqidinin gerçək durumunadək.// "Azərbaycan", 2007. №7, s.162-179

[17]Yusifli Vaqif. Tənqiddə yenı səs (Nərgiz Cabbarlının "Yeni nəsil ədəbiyyatı (Elm, 2006) kitabı haqqında qeydlər).// "Azərbaycan" jurnalı. 2006, №11, s.183-187

**Dissertasiyanın strukturu.**Dissertasiya giriş, üç fəsil, nəticə, istifadə olunmuş ədəbiyyatın müxtəsər siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"**ində mövzunun aktuallığı əsaslandırılmış, elmi yeniliyi, tədqiqatın predmeti, məqsəd və vəzifələri, metodu, mövzunun öyrənilməsi, dissertasiyanın nəzəri və təcrübi əhəmiyyəti, aprobasiyası haqqında məlumat verilmişdir.

**"Yeni ədəbi-ictimai mühit və çağdaş Azərbaycan şeiri"** adlı I fəsil iki yarımfəsildən ibarətdir. Birinci yarımfəsil **"Qlobal hadisə və proseslərin Azərbaycan şeirinə təsiri"** adlanır.XX əsrin sonları Azərbaycanda, keçmiş Sovet İttifaqında və dünyada baş verən hadisələr sübut etdi ki, yer kürəsinin hər hansı bir nöqtəsində gedən əhəmiyyətli dəyişikliyə qlobal anlamda yanaşılmalıdır. Çünki dünyanın bəlli hissəsini zəbt etmiş sosializm quruluşu, millilik anlayışının mövcudluğunu unutmuş «sovet insanı» modeli dağılmaqda idi. Kapitalizm və sosializm arasında gedən «müharibə» birincinin xeyrinə həll olunmuşdu. Tədqiq etdiyimiz dövr qlobal hadisə və proseslərin nisbətən dinc mərhələyə qədəm qoyduğu, milli-etnik münaqişələrin həll olunmasa da, danışıqlar mərhələsinə adladığı *(məsələn, Dnestryanı məsələsi, Çeçenistan, Abxaziya, Qarabağ problemləri)* dövr idi və bu, istər-istəməz insanların ümumi əhvali-ruhiyyəsinə təsir edirdi. 1993-cü ildə Heydər Əliyevin yenidən hakimiyyətə gəlişi ölkədəki və cəmiyyətdəki ovqat dəyişikliyinin əsas səbəblərindən biri idi. Atəşkəsin elan olunmasıda bu dövrə təsadüf etdiyindən, bu, cəmiyyətlə bərabər vətəndaşa – şairə, deməli, həm də poeziyaya təsirsiz qala bilməzdi. Bu dövr poeziyası 1990-cı illərin əvvəllərindən başlayaraq daha çox "çöküş fəlsəfəsi"ni ifadə edirdi. Çünki dövlət də, cəmiyyət də tənəzzülə uğramışdı. Azadlıq əldə edilsə də, verilən qurban böyük idi və çökmüş dövləti yenidən dirçəltmək uzun proses olacaqdı. I fəslin birinci yarımfəslində lokal və qlobal hadisə və proseslərin şairlərin yaradıcılığında hansı şəkildə əks etdirildiyi araşdırılır. Müəyyən edilir ki, çağdaş şeirdə ictimai-siyasi proseslərin təsviri və ifadəsində iki istiqamət mövcuddur.Birinci qrup şairlərin yaradıcılığında ictimai-siyasi hadisələr, müharibə fakt kimi görünür. Şair bütünlüklə proseslərin içindədir. Onların mövcudluğundan çıxış edərək danışır, hisslərini ifadə edir, dünyaya baxır. İkinci qrup şairlərin yaradıcılığıonların ölkədə baş verən hadisələrdən, faciələrdən uzaq olduqlarını, təsirlənmədiklərini göstərsə də, burada fakt təəssürat şəklində meydana çıxır. Ötürülmə mexanizmi fərqlidir – təəssürat xarakterlidir.

Həmçinin simvol yaradıcılığı, fikrin, təəssüratın simvolik modelinin qurulması prosesi də faktı arxa plana ötürür. Görünməz və ya zəif görünən edir. İkinci yarımfəsil **"İdeya axtarışları və məzmun yeniliyi"**adlanır. Müəyyən edilir ki, 1993-2005-ci illər şeirində baş verən dəyişikliklər ilk növbədə özünü ideya axtarışlarında və məzmun yeniliyində göstərir. Bu, çağdaş Azərbaycan şeirinin 1988-ci il hadisələrindən sonra əldə etməyə başladığı ən əhəmiyyətli keyfiyyət dəyişikliklərindən, inkişaf meyillərindən biri kimi dəyərləndirilə bilər. İdeya axtarışları, məzmun yeniliyi cəmiyyətdə mövcud olan problemlərdən qaynaqlanırdı. İdeya-məzmun istiqamətimüşahidə edilərkən diqqəti çəkən ilk cəhət cəmiyyətdəki ictimai-siyasi və bundan doğan mənəvi-psixoloji dəyişikliklərin şeirdə ikitipli təzahür formasıdır. Birinci yarımfəsildə gəldiyimiz qənaəti bir qədər də genişləndiririk. Birinci tip şeirlərdə cəmiyyətin həyatında baş verənlər **«hissi təəssürat+fikir+fakt»** şəklində mətnə ötürülür. İkinci qism mətnlərdə isə ictimai-siyasi proseslər və onların doğurduğu fəsadlar ümumbəşəri problemlərin ümumiləşdirilmiş təhlili, ifadəsi – yəni hissi təəssüratla fəlsəfi mühakimənin birləşməsi şəklində təzahür edir: **«hissi təəssürat+fəlsəfi mühakimə»**. Bu cür mətnlərdə hadisə deyil, ondan yaranan təəssürat, fakt deyil, onun yaratdığı fikir ön plandadır. Konkret zaman, konkret məkan və konkret hadisə isə sadəcə hissi coşduran, təfəkkürü bəşəri problemlərin təhlili istiqamətində hərəkətə gətirən motiv rolunda çıxış edir və arxa planda qalır. Çağdaş şeirdə mövzu, problem, ideya, təqdim edilən xarakterlərdə müharibə amilinin təsiri ilə müşahidə edilən tipoloji dəyişiklik müzakirə predmeti ola bilər. Təsvir olunan xarakterlər əsasən müharibə dövrünün formalaşdırdığı, bəzən mənəvi yüksəkliyə qaldırdığı, bəzən isə şəxsiyyətcə deformasiyaya uğratdığı «müharibə insanı» modelidir. Qaldırılan problemlər əsasən dövrün və müharibənin meydana çıxardığı ictimai, siyasi, sosial, mənəvi, psixoloji problemlərdir; müraciət edilən mövzulardan müharibə əsas xətt kimi keçir, ideyalar da həmçinin müharibə faktından «uzaq gedə» bilmir.

Dissertasiyanın **"Çağdaş Azərbaycan şeirində yeni yaradıcılıq təmayülləri"**adlı ikinci fəsli dörd yarımfəsildən ibarətdir. "**Çağdaş şeir və "çöküş fəlsəfəsi"** adlananbirinci yarımfəsildədövrün xarakterik dekadans ovqatıtəhlil olunur.Azərbaycan şeirinin tədqiq etdiyimiz dövrü öz dinamik inkişafı, rəngarəngliyi, müxtəlif ədəbi birliklərin, qrupların, təmayüllərin meydana çıxdığı, bir-birini əvəzlədiyi, "manifestasiya mərhələsi" yaşadığı dövr kimi xarakterizə olunur. Yeni yaradıcılıq təmayülləri ilə bağlı təsnifat aparılır: 1. Dekadans şeir; 2. Avanqard şeir; 3. Modernist-eksperimental şeir (neomodernizm dalğası); 4. Postmodernist şeir.

1980-ci illərin sonunda, azadlıq mücadiləsinin başladığı ilk illərdə poeziya nə qədər coşğulu, gələcəyə inamlı, ideya tərənnümçüsü kimi çıxış edirdisə, 1990-cı illərin əvvəllərindən başlayaraq pessimizm, çöküş, dekadans əhvalı hakim mövqeyə keçdi. Və bu ovqat bir çox şairlərin yaradıcılığında əsaslı yer tutdu. Bu, heç bir qruplaşma, birləşmə tələb etməyən təmayül idi. Həm də digər təmayüllər kimi stilistik dəyişiklərlə deyil, məzmunla, çöküş dövrünün ifadə olunan ovqatıyla xarakterizə edilirdi. Dünya ədəbiyyatı – Azərbaycan ədəbiyyatı da daxil olmaqla - öz mövcudluğunun müxtəlif dönəmlərində bu mərhələni yaşayıb. Tarix göstərir ki, adətən tarixi proseslərin qlobal dəyişimi, sosial ziddiyyətlərin qabarması, ictimai-siyasi quruluşlarda keçid prosesi yaşandığı dövrlərdə, əsrlərin qovuşacağında poeziyanın dekadans mərhələsi özünün ən yüksək həddini əldə edir."U.Ekonun "hər dövrün öz postmodernizmi var", sözlərini dəyişərək eyni əminliklə söyləmək olar ki, hər bir epoxa həm də öz dekadansını tanıyır"[18]. XX əsrin son onilliyinin əvvəlləri də əsas olaraq bununla yadda qalır:R.Rövşən, V.Səmədoğlu, R.Behrudi, Salam, İ.Qəhrəman, Səhər və s. yaradcılığında. Dekadentizmin xarakterik xüsusiyyətləri subyektivizm, individualizm və ictimailikdən uzaqlaşmadır ki, bu da incəsənətdə reallıqdan qaçma, "sənət sənət üçündür" poetikası, estetizm şəklində ortaya çıxır. Bədii mətnlərdə mənəvi çöküş fəlsəfəsi, həyatın və ictimai fəallığın əhəmiyyətsizliyi, yaşamın mənasızlığı, gələcəyə inamsızlıq və s. kimi nəticələr görünməyə başladı. Bu poeziyanın ifadə etdiyi əsas fikir "keçmişlə bağ qopub, gələcəyinsə necə olacağı bəlli deyil" kimi ümumiləşdirilə bilər. Adət edilmiş siyasi sistem, inanılmış dəyərlərin dağılması şeirdə dekadans ovqatın güclənməsinə şərait yaradan əsas amillərdir. Bu poeziyada Ölümə məhkum edilmiş insanın qorxusu, özünəqapılması, təklənmiş, təcrid olunmuş Eqosu ön plana çıxır. İnkişafa inamsızlıq, hər şeyin mənasızlığı və Son düşüncəsi çağdaş şeirdə poetik qəhrəmanın Öz dünyasını yaratması ilə nəticələnir. Şair yaradıcılıq prosesində Ölümlə, Allahla üz-üzə durur. Cəmiyyətdən qaçır. Özü üçün Dünyanı yenidən qurmağa, amma bu dəfə reallıqda deyil, ondan uzaqda yaratmağa çalışır. Mistisizmə qədər yol alır. Şair öz daxilinə çəkilir, öz hisslərinin əsirinə çevrilir, ictimai mübarizənin gərəksizliyi ilə bağılı qənaət əldə edir. Bu bir çox müəlliflərin, xüsusilə də azadlıq mücadiləsi

[18]Савельев К.Н. Новые подходы в осмыслении понятия «декаданс» // Проблемы филологии, культурологии и искусствоведения, 2007, №1, с.141-147

prosesində yaxından iştirak etmiş əksər şairlərin yaradıcılığında müşahidə olundu.

II fəslin 2-ci bölümü "**Yeni yaradıcılıq təmayülləri, ədəbi qruplar və avanqard poeziya" adlanır.** XX əsrin sonu, XXI əsrin əvvəllərində meydana çıxan yeni yaradıcılıq təmayüllərinin yetişməsi üçün üç əsas amilin mövcudluğu şərt idi:1.İctimai-siyasi və sosial mühitin xaotik vəziyyəti və onun doğurduğu inkarçılıq hissi;2.Qloballaşma prosesinin başlaması nəticəsində cəmiyyətdə milli-ənənəvi dəyərlərlə kosmopolit düşüncənin qarşı-qarşıya gəlməsi;3. Dünya ədəbiyyatında gedən peoseslərlə təmasın aktivləşməsi; Araşdırdığımız tarixi mərhələ həm geniş miqyasda dünyada, həm sosialist quruluşlu ölkələrdə, həm də Azərbaycanda baş verən hadisələr təfəkkürlərdə siyasi-ideoloji dönüş yaratmaqla bərabər estetik düşüncə stereotiplərinin laxlaması, dağılması, yeniləri ilə əvəzlənməsi üçün real şərait yaratmışdı. Yeni avanqard meyillərin, yeni yaradıcılıq təşkilatlarının, klassik AYB-yə alternativ qrupların meydana çıxması, əvvəlki estetik yanaşmaları inkar edən təmayüllərin yaranması günün tələbi idi. "İtirilmiş" və ya "İtirilməkdə olan ədəbi nəsil" vardı ki, onların yaradıcılıqlarının əhəmiyyətli dövrü siyasi proseslərin dinamik inkişafı və müharibənin qarışıq zamanı ilə üst-üstə düşmüşdü. Cəmiyyətin inqilabi ab-havası və senzurasızlıq mühiti bu prosesin yetişməsində əhəmiyyətli rol oynadı. 1992-cı ildə mövcudluğunu bəyan edən ilk qrup avanqard poeziyaya meylli "Baca" idi. Bir çox ədəbi qrupların, özünü "cərəyan" adlandıran birliklərin yaranmasına baxmayaraq, avanqard cərəyan məhz bu qrupun üzvlərinin və onlara sonradan qoşulan başqa şairlərin yaradıcılığı əsasında formalaşdı. O, Azərbaycan ədəbiyyatında və poeziyasında postmodernizmin ilk təzahürlərinin meydana çıxması üçün də zəmin hazırlaya bildi. Amma bir neçəsi istisna olmaqla digər ədəbi qrupların və birliklərin əksəriyyəti manifestasiya səviyyəsini adlaya bilmədilər. 3 şairdən ibarət "Baca" da öz sələfləri, məsələn, rus avanqardçıları "Puşkinləri dənizə atmaq istədikləri" kimi, klassikləri tənqid edir, klassk ədəbiyyatı inkar edirdilər. Eyni zamanda da yeni düşüncə tərzi aşılamağa çalışırdılar, "...dünyaya və insanlara daha yığcam və kəsə, zamanın sürətinə daha uyğun münasibət bəsləməyi", "sənət meydanında avanqardçı olaraq" hər cür köhnəliklə əks cəbhədə dayanmağı" təklif edirdilər[19]. Bu, təxminən tarixdən bildiyimiz "İctimai zövqə şapalaq" manifestini, "Tənəzzülün səbəbləri və müasir rus ədəbiyyatında yeni cərəyanlar haqqında", "Simvolizm dünyaduyumu kimi"

[19] Qaraca Rasim. Bir dəqiqəlik səs küy.// Xəzər. 1990, №2. s.88-89

və s.manifestləri xatırladır[20]. Azərbaycan avanqardçılarının dilə münasibət məsələsi də sələflərinkindən fərqlənmirdi. Onların dilin sintaksisinə təsir etmək iddiaları ifadə və təsvir vasitələrində yeni, fərqli, özünəməxsus kombinasiyalar yaratma bacarığında hiss olundu. Bundan başqa, yazı qaydalarına münasibətdə də sələflərinin atdığı addımı təkrarladılar – böyük hərflərdən və durğu işarələrindən imtina edildi.Avanqardçılarda fərqli dunyaduyumu, klassik ənənələrlə mübarizə, etiraz hissinin ifadəsi, "insanın kainatda yerinə və təyinatına yeni baxış, əvvəllər müəyyən edilmiş norma və qaydalardan, ənənə və şərtiliklərdən imtina, forma və üslub sahəsində eksperimentlərin aparılması, yeni bədii vasitə və üsulların aranması"[21]müşahidə edilirdi. Avanqardçıların kəskin və birmənalı şəkildə klassikaya qarşı çıxması, ənənəvi poeziyanı bitmiş, tamamlanmış hesab etməsi konkret bir dünyaduyum, müasir insan və müasir cəmiyyətin ovqatını ifadə etmə baxımından anlaşılan ola bilər. Lakin ənənəvi ədəbiyyatda "rəngsizlik və materiyasızlıq" iddiaları və öz yaradıcılıqlarında rəng və materiya, hətta qoxu, dad və s. yarada biləcəkləri iddiası şişirdilmişdi.

II fəslin 3-cü bölümü "**Modernist-eksperimental şeir və çağdaş poeziyada "neomodernizm" dalğası" adlanır.** Modernizm XX əsrin əvvəllərinin hadisəsi idi. Dünya ədəbiyyatı, fəlsəfə və incəsənət də daxil olmaqla 50-60-cı illərdən başlayaraq neomodernizm, postmodernizm, postpostmodernizm mərhələsini yaşayır.Azərbaycan poeziyası və ədəbiyyatı modernizmi bir epoxa kimi yaşamayıb. Modernizm heç vaxt ədəbiyyatımızda bəlli sərhədləri olan cərəyana çevrilməyib. O forma eksperimentlərində, sərbəst şeirin hegemonluğunda, mətnin məzmununda, strukturunda, istifadə edilən ifadə fiqurlarında ənənədən uzaqlaşmada, poeziyanın "alt yapı"sında ənənəni danmada, düşüncə stereotiplərinin dəyişimində 1970-ci illərdə belə mövcud olub. Ümumiyyətlə, bir sıra tədqiqatçıların bununla bağlı gəldiyi ümumi qənaətlər mövcuddur. Məsələn, elmi-nəzəri ədəbiyyatda 70-80-ci illər Azərbaycan ədəbiyyatının modernizm dövrünün başlanğıcı kimi təhlil edilir. Professor N.Cəfərov XX əsrdə poeziyanın imkanlarının genişləndiyini söyləyərək bunun iki məktəb, yaxud tendensiya əsasında formalaşdığını göstərirdi. Onlardan biri Rəsul Rzanın yaratdığı modernist-eksperimental məktəb, digəri isə Səməd Vurğunun rəhbərlik etdiyi ənənəvi məktəb idi[22]. Tənqidçi V.Yusiflinin də qənaəti təxminən eynidir. O da Azərbaycanın ilk modernist şairi kimi

[20] Литературные манифесты: от символизма до «Октября». Москва, Аграф. 2001.
[21]Борев Ю. Эстетика. Москва. Высшая школа, 2002. 310 с.
[22] Cəfərov Nizami.Klassiklərdən müasirlərə. Bakı. Çaşıoğlu, 2004. 156 s.

R.Rzanın adını çəkir[23].Manifestasiya, birləşmə, ənənəni inkar, bunu açıq-aydın elan etmə dünyada bütün modernist cərəyanların əsas xüsusiyyəti olub. Modernizm sosial-siyasi zəmində yetişib və öz açıq mübarizə forması ilə meydana çıxıb. Azərbaycan poeziyasında sosial-siyasi zəminli etiraz ruhu sovet dövründə poeziyanın daha alt qatlarında olmuş, yalnız 80-ci illərin sonlarına doğru milli azadlıq mücadiləsinin başlaması ilə üst qata transformasiya edilə, həm də daha çox avanqardçıların çıxışlarında etirazın və inkarın yüksək həddinə yüksələ bilmişdir. Avanqarddan öz təmkinliliyi ilə seçilən modernizm isə bizim poeziyada var olduğunu "bağırmayıb".Azərbaycan şeirində (ümumən ədəbiyyatında da) modernist-eksprimental yaradıcılıq meyilləri əsasən tarixi modernizmi təkrar və inkişaf etdirdiyindən ümumən modernist cərəyanların əksər koloritli xüsusiyyətlərinin mətnə tətbiqi baş verib. Burada hansısa konkret modernist cərəyandan deyil, ümumi modernist-eksperimentalizmdən danışmaq lazım gəlir. Forma yeniliyi etmək üçün digər xalqların şeir formalarından istifadədən, yeni formalar yaratmaq cəhdlərindən, dünya ədəbiyyatında artıq sınanmış vizual şeir effektlərindən tutmuş, yeni ifadə və təsvir kombinasiyaları quraşdırmaq cəhdinə, "dil oyunları"na, "durğu işarələrini semantik anlamda canlandırmağa", "rənglə sözü birləşdirməyə", mətndə durğu işarələrindən imtinaya qədər fərqli yollar bu axında birləşib. Dünyanı yenidən qurmağın mümkünlüyünə inam bəsləyən modernistlər bu inamı şeirə ötürürdülər. Şəhər həyatı, onun reallıqları, urbanizasiyanın insanın həyatının və varolmasının əhəmiyyətli faktına çevrilməsi, şeir dilində kəskin dönüşlər, insanın şüuru və altşüuru arasında əlaqənin araşdırılması, insan mənəviyyatının "dibinə" enmələr və s. modernizmin diqqət mərkəzində olan məslələrdir ki, çağdaş poeziyanın "çöküş mərhələsi"ndən sonra yaranan nümunələrdə bu xüsusiyyətlər mövcuddur.

II fəslin 4-cü yarımfəsli **"Çağdaş Azərbaycan şeirində postmodernizmin ilkin təzahürləri"** adlanır.Postmodernizm "ruhun vəziyyəti"(U.Eko) kimi təhlil edildiyindən onun qloballaşmaqda olan dünyanı bürüyən xaosla, ictimai-siyasi qarışıqlığın, informasiya axınının, hər an inkişafda olan texnologiya basqısının içərisində ruhən boğulmaqda olan insanın gözəlliiyə və estetik dəyərlərə münasibətindəki dəyşikliklərlə əlaqəsi danılmazdır. Postmodernizmdə "dünyanın təzyiqinə dözə bilməyən" və "postinsan"a çevrilən (Y.Borev) [24] insanın dünyaduyumu əks

---

[23] Yusifli Vaqif. Poeziyanın yolları və illəri (1960-2000-ci illər). Bakı. Mütərcim, 2009.

[24]Борев Ю. Эстетика. Москва. Высшая школа, 2002. с.366

olunur.Postmodernizm xarakterizə olunarkən kütlə ilə elitar mədəniyyət arasında sərhədlərin itirilməsi, “açıq mətn” konsepsiyası (Eko), onun “keçmişin yenidən dərk olunma” vasitəsi kimi çıxış etməsi, elmlə informasiyanın hegemon olduğu dövrdə ”zəruri plüralizm”ə vasitəçi olması, “Tama müharibə” kimi meydana çıxması (Liotar), mətnin əslində “dekonstriksiya olunmuş mətn” kimi qəbul edilməsi (J.Derrida),... və s. xüsusiyyətləri qabardılır. 1990-cı illər Azərbaycan ədəbiyyatı və ədəbi fikri, cəmiyyəti üçün bütün bunlar gözlənilməz və təccüblü idi.90-cı illərin sonu və 2000-ci illərin əvvəllərindən etibarən bir sıra yazıçı və şairlərin yaradıcılığında postmodernizmin ilkin təzahürləri görünməyə başladı. «Postmodern» şeir əslində, çağdaş Azərbaycan ədəbiyyatı üçün yeni və hələ də tam təsdiqini tapmamış anlayışdır və onu modernist-eksperimental şeirin davamı, bir qədər də dəqiqləşdirsək, yeni mərhələsi kimi qiymətləndirmək olar. Modernizmin nəzəri əsasında «insan elmi öyrənə və reallığa çevirərək dünyanı dəyişdirə bilər» fikri durur. Keçmişi inkar durur. Ondan sonra gələn postmodernizm isə dünyanı elm və informasiyaya sahib olanların idarə edəcəkləri fikrini (Lotar) irəli sürməklə eynilə modernizm kimi özündən əvvəl mövcud olanın üzərində, amma onu inkar etmədən, xüsusiyyətlərindən istifadə edərək, mənimsəyərək, dekonstruksiyaya uğradaraq inkişafı nəzərdə tutur.Azərbaycan şeirində postmodernizmin ilkin təzahürünü tapan aşağıdakı xüsusiyyətləri sadalaya bilərik: 1.Klassik və yaddaşlarda əzbər qalan mətnlərin dekonstruksiyası; 2.Kollaj effekti – müxtəlif mətnlərdən parçaların bir araya gətirilməsi;3.Epataj effektə hesablanan postmodern ironiyanın ifadəsi.

**III fəsil “Çağdaş Azərbaycan şeirinin poetik ifadə sistemi”** adlanır və iki yarımfəsildən ibarətdir.**“Ənənə və eksperimentin poetik ifadə sisteminin formalaşmasında rolu”** adlı birinci yarımfəsildə poetik ifadə sisteminin ənənəyə söykənən qaynaqları və eksperimentlər sayəsində əldə etdiyi yeni çalarlar araşdırılır. Bu günün şeiri daha çox xalq poeziyası və şifahi ədəbiyyatdan gələn ənənələri yaşadır. Klassik aşıq şeiri, şifahi xalq şeiri ənənələri öz aktuallığını müxtəlif aspektlərdə - mövzu və problem, poetik obrazlar müstəvisində, forma qəliblərində, qafiyə sistemində, ifadə və təsvir vasitələrinin bənzər strukturunda və s. göstərir.Heca şeirində çoxəsrlik tarixə malik hazır qəliblər, ənənəvi qafiyələnmə sistemi, eyni və ya oxşar qafiyə kombinasiyaları o qədər işlədilib ki, ənənəvi şeir yeni mövzuların, yeni problemlərin ifadəsi üçün istifadə edildikdə belə əksər hallarda öz poetik ovqatını qoruyub saxlaya

bilir. Bəzən tədqiqatçılar bunu "variantyaratma" (R.Əliyev) kimi də dəyərləndirirlər. Bu əsrlərlə tarixi olan şeirlə bağlı genetik yaddaşda, xüsusilə də altşüurda qorunan "variantlar"dır ki, onların təsirindən qurtulmaq çətin prosesdir. Məsələn, çağdaş şeirin poetik sistemində əhəmiyyətli yer tutan formalar var ki, tədqiq etdiyimz dövrdə yaradıcılıq dövriyyəsinə həddindən artıq daxil olmuş görünürlər. Məsələn, 8-lik, 7-lik və 11-liklər. 1990-cı illərin əvvəllərindən təxminən iki onillikdir aparıcı mövqedədirlər. Hətta 8-lik-nəğmə formasından yaradıcılığının bir mərhələsinin ifadəsi kimi istifadə edən R.Rövşəni nümunə göstərmək olar ki, o, bu ənənəvi qəlib daxilində tamamilə fərqli ab-hava, yeni poetik nəticələr ortaya qoya bildi. R.Rövşənlə bərabər və ondan sonra digər şairlərin – V.Səmədoğlu, Salam, Səhər, B.Sadiq, M.Ağa, R.Behrudi, Q.Ağsəs, R.Sabir və s. yaradıcılığında 8-liyin tanış ritmi-melodiyası, poetik aurası tez-tez və əsaslı şəkildə göründü. Hətta bunu R.Rövşən yaradıcılığının təsiri kimi dəyərləndirilməsi meyilləri də meydana çıxdı. Ənənəvi şeir daxilində təzadlar və "söz oyunu" vasitəsilə maraqlı eksperimentlərin aparılması tədqiq etdiyimiz dövr üçün aktual olan tendensiya idi. Eksperiment sözü adətən avanqard, modernist, postmodern şeirə aid edilən istilah olsa da, ənənəvi forma daxilində də bu cür faktların mövcudluğu bəllidir. Məsələn, tədqiq etdiyimiz dövrdə ənənəvi heca daxilində "konstruksiyalı şeir" yaratmaq meyli xüsusi maraq cəlb etdi ki, bunun da əhəmiyyətli nəticələri mövcuddur. Xüsusilə R.Rövşənin, V.Səmədoğlunun, Salamın, yaradıcılığında.Konstruksiya ilə qurulan şeirlər ilk növbədə öz daxilindəki söz oyunu ilə diqqət çəkir. Əsas məsələ duyğunun, hissin birbaşa mətnə ötürülməsi yox, fərqli düşüncələrin, zidd hisslərin, təzadlı duyğu və fikirlərin qarşı-qarşıya gətirilməsidir. Yəni məntiqə əsaslanan, rasional şəkildə konstruksiya qurulmasıdır. Şeirdə süjetsizlik, bəndlər arasında məntiqi bağın bilərəkdən "qırılması", yaxud heç olmaması, fikir ardıcıllığının, davamlılığının müəyyən edilməməsi də bu cür şeirlərin əsas xüsusiyyətidir.

III fəslin ikinci yarımfəsli **"Poetik ifadə sistemində simvol və detal yaradıcılığı"**adlanır.Bədii mətnin ifadə sistemində poetik detalların özünəməxsus yeri var. Lakin Azərbaycan şeirində bədii detalın rolu və funksiyası nəsrdən fərqli olaraq çox araşdırılmayıb. Bədii detal hər hansı bir mənzərənin, obrazın, xarakterin, təəssüratın, situasiyanın yaradılmasında iştirak edən mövcud poetik vasitələrdən biridir və oxucuya hər hansı xarakteri, səhnəni, əşyanı, hərəkəti, təəssüratı xəyalında canlandırması üçün əhəmiyyətli dərəcədə kömək edir. Çağdaş şeirdə simvollaşan, müstəqil bədii obraza çevrilən detallardan daha çox istifadə

edilib. Əgər bu obrazların sırasını sadalamalı olsaq, belə bir siyahı alınacaq: güzgü (A.Mirseyid, R.Rövşən), dar ağacı (R.Behrudi), kəpənək qanadı (R.Rövşən), qanadlı adam, qanadlı sevgi, qanadlı Tanrı, ümumiyyətlə qanad (V.Bayatlı), kötük (R.Rövşən, M.İlqar), mələk, şeytan (R.Behrudi), divar, söz, torpaq-daxıl (R.Rövşən, Salam), qara pul (R.Rövşən), quş (R.Rövşən), papaq (C.Novruz), şam (R.Rövşən), bazar (C.Novruz), leysan yağış (F.Qoca), çadır (B.Vahabzadə), qala (C.Novruz), bayraq (F.Sadıq), körpü (B.Vahabzadə, İ.İlyaslı), yarpaq (F.Sadıq), yolayrıcı (B.Vahabzadə, M.Araz) və s. Bu detalların hər biri şair ovqatını, hansısa situasiyanı, psixoloji durumu ifadə etmək üçün tamın bir parçası, müəllifin bütöv şəkildə göstərmədiyinin bir hissəsi, arxada, fonda qalanın, təxəyyüldə yaradılanın bir ştrixi şəklində çıxış edirlər. Sadəcə, müəllifin uğuru, istedadı – təbii ki, eyni zamanda da oxucunun individual bacarığı onların simvol kimi, bədii obraz kimi iştirakına və qəbuluna şərait yaradır. Simvol-detallardan çox istifadə edən Ramiz Rövşən yaradıcılığında «yarpaq», «ömür budağı» kimi detallar onun bir çox şeirlərinə səpələnib. O məhz bu detalların vasitəsilə bütöv obrazlar yarada, hissi təəssüratın, psixoloji ovqatın, emosional vəziyyətin və situasiyanın dolğun təsəvvürünü formalaşdıra bilir.

**Nəticə**. "ÇağdaşAzərbaycan şeirinin inkişaf meyilləri (1993-2005)" dissertasiyasında əldə etdiyimiz elmi qənaətləri aşağıdakı kimi ümumiləşdirə bilərik:

- 1993-2005-ci illər XX əsr Azərbaycan ədəbiyyatının məna-məzmun, ideya-problem, poetik ifadə sistemində əhəmiyyətli dəyişikliklərin baş verdiyi mərhələ kimi dəyərləndirilməlidir. 1993-cü il ölkədə ictimai-siyasi hadisələrin dönüş nöqtəsi oldu, hakimiyyət dəyişikliyi, müharibədə atəşkəs razılığının əldə edilməsi, hadisələrin nisbətən dinc mərhələyə adlaması cəmiyyətin ovqatının poeziyada adekvat əks olunmasına şərait yaratdı.
- Çağdaş şeir dekadans mərhələsini adladı. Avanqard şeir, modernist-eksperimental şeir və postmodernist şeir məhz bu dövrün bədii nəticələridir.
- Tədqiq edilən dövr Azərbaycan ədəbiyyatı təcrübəsində ilk olan ədəbi qrupların da, ədəbi manifestlərin də elan edilməsi ilə xarakterizə edilir.
- Dünyada və ölkədə baş verən qlobal hadisə və proseslər Azərbaycan şeirinə ideya, mövzu, problematika, məzmun cəhətdən bir sıra yeniliklər gətirdi. Tanrı, Ölüm, Azadlıq, Müharibə, Şəhidlik, Qaçqınlıq kimi şağdaş şeir üçün yeni olan problemlər şeirin təhlil predmetinə çevrildi.

- Azərbaycan şeiri tariximizin bu mərhələsində gerçəkliyin və qlobal hadisələrin şeirə ötürülməsinin iki prinsipini müəyyən etdi: “hissi təəssürat+fikir+fakt” və “hissi təəssürat + fəlsəfi mühakimə”.

- Postmodernizm ədəbi-fəlsəfi fakt olaraq Azərbaycan ədəbiyyatına, o cümlədən şeirinə öz təsirini göstərmiş oldu. Bu proses hələ də davam etməkdədir. Amma bu yalnız dünya ədəbiyyatındakı postmodernist tendensiyanın bəzi xüsusiyyətlərinin çağdaş şeirdə təzahürləri kimi təsdiqini tapdı.

- Müasir şairlər postmodernizmlə yanaşı bir çox müxtəlif ədəbi cərəyanların estetik tələblərini yenidən canlandırmağa, Azərbaycan şeirinə tətbiq etmyə cəhd göstərdilər. Belə cəhdlər o qədər çoxaldı ki, hətta bu mərhələ «Azərbaycan şeirinin eksperimentlər mərhələsi» də adlandırıla bilər.

- Assosiativ şeir, təzadlar üzərində qurulan şeir, vizual şeir aktuallaşdı və məhz bu istiqamətdə baş tutan eksperimentlər, reallaşan nümunələr meydana çıxdı.

- Poetik ifadə sistemində ənənənin və eksperimentlərin təsiri araşdırıldı və iki istiqamət müəyyən edildi. Ənənəvi forma daxilində eksperimentlərin aparılması ilə “konstruktiv şeir”, “təzad assosasiyası üzərində qurulan” şeir kimi maraqlı nəticələrin əldə olunması; əsasən sərbəst şeir forması üzərində avanqard, modernist və postmodernist nümunələrin yaradılması. Hər iki istiqamətdə də Azərbaycan şeir təcrübəsi üçün yeni olan nəticələr əldə edildi.

- Poetik ifadə sistemində simvol-detal və detal-təfərrüatın yeri müəyyən edildi. Hər iki istiqamətdə xarakterik nümunələr təqdim edən yaradıcılıqlar əsasında bədii detalın çağdaş şeirin əhəmiyyətli poetik ifadə fiquru kimi çıxış etdiyi aydınlaşdı.Çağdaş şeirin bu mərhələsi həm ideya-məzmun, həm də poetik tapıntılar baxımından şağdaş şeirimizin inkişaf mərhələsi kimi dəyərləndirilə bilər.

## Dissertasiyanın əsas məzmunu aşağıdakı məqalə və tezislərdə öz əksini tapmışdır.

### Monoqrafiyalar:

1. Nərgiz Cabbarlı. Yeni nəsil ədəbiyyatı. Bakı. Elm, 2006, 380 s.
2. Nərgiz Cabbarlı. Yeni nəsil ədəbiyyatı – 2. Bakı. Qanun. 2008, 220 s.

### Məqalə və tezislər:

3. Yeni nəsil poeziyası//Azərbaycan jurnalı. №8, 2004. s.148-168

4. Poeziya-2006.//Azərbaycan jurnalı. №2, 2007. s.196-200
5. Qlobal hadisə və proseslərin çağdaş Azərbaycan şeirinə təsiri – 1993-2005-ci illər (tezislər).//Müqayisəli ədəbiyyat: Ədəbiyyat və mədəniyyətlərdə istoriqrafiya: mif, ədəbiyyat və tarix arasında. Bakı. Slavyan Universiteti (konfrans). 20-21 dekabr, 2013. s.86-87
6. Влияние глобальных событий и процессов на современную азербайджанскую поэзию 1993-2005 гг.// Журнал научных публикаций аспирантов и докторантов. Курск. №7, 2013 г.с.151-157
7. Художественная деталь и символы в современной Азербайджанской поэзии (1993-2005).//Филологические науки. Вопросы теории и практики. Тамбов: Грамота, 2014. №10 (40); в 3-х ч. Ч.1. с.13-19.
8. Müasir Azərbaycan şeirində ideya axtarışları (1993-2005).//Ədəbiyyat Məcmuəsi. Nizami adına Ədəbiyyat İnstitutunun Gənc alimlər üçün xüsusi buraxılışı. XXV cild. Bakı. Elm və təhsil. 2014. s. 216-224
9. Çağdaş Azərbaycan şeirində ənənə və yeni yaradıcılıq istiqamətləri (1993-2005).//Filologiya məsələləri. Bakı. Elm və təhsil, 2014. №5. s.350-359
10.2013-cü ilin şeiri. Ədəbi proses 2013.//Azərbaycan Milli Elmlər Akademiyası Ədəbiyyat İnstitutunun buraxılışı. Bakı, 2014.s.32-57
11.Qlobal tarixi hadisə və proseslərin Azərbaycan şeirinə təsiri (tezislər). //Azərbaycan xalqının ümumilli Lideri Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş Gənc Tədqiqatçıların II Beynəlxalq Elmi Konfransının materialları, 18-19 aprel, 2014-cü il, s.275-276
12. Çağdaş Azərbaycan şeirinin bədii ifadə sistemində poetik detalların rolu.//Poetika.izm. Nizami adına Ədəbiyyat İnstitutunun elmi əsərləri. s.232-247
13. Modernist-eksperimental şeir və çağdaş poeziyada "neomodern dalğası".//Azərbaycan. №12. 2014. s.180-191
14. XXI əsr Azərbaycan şeiri dünya ədəbiyyatı kontekstində - ənənə və yeni təmayüllər.//Kazan.Международная научно-практическая конференция «Истоки и эволюция литератур и музыки тюркских народов» в рамках форума «Казань – культурная столица тюркского мира». 23–24 сентябрь, 2014. с.24-26
15. Dünya Edebiyatında Postmodernizm ve Onun XXI yüzyıl Azerbaycan Edebiyatına Etkisi.// Mersin Universiteti. V.Uluslararası Karşılaşdırmalı Edebiyat Bilimi Konqresi. 16-17-18 oktyabr. Özetler. s.65-66
16. Müharibə mövzusu çağdaş Azərbaycan şeirində əsas istiqamət kimi (1993-2005).//Sakarya Universiteti Fen Edebiyat Fakültesi. Uluslararsı

Savaş ve Edebiyat Sempoziumu. 16-18 dekabr, 2014. Bildiri özetleri. s.26-28
17. Poeziyamızda nələr baş verir. Lit.az. http://meqale.lit.az/poeziya.php
18. Yeni yaradıcılıq təmayülləri, ədəbi qruplar və avanqard poeziya.//Azərbaycan jurnalı. №1, 2015. s.163-72
**Наргиз Абдуллаева (Джаббарлы)**

## Тенденции развития современной азербайджанской поэзии (1993-2005гг.)

## РЕЗЮМЕ

Объектом данного исследования является современная азербайджанская поэзия 1993-2005гг. Эти годы являются исторически важным периодом становления независимой Азербайджанской республики и обусловлены не только изменениями в развитии общественно-политической и социально-экономической жизни страны. Аналогичные процессы происходили так же в литературе и искусстве. Возникновение различных творческих течений и художественных групп, издание манифестов, отражающих эстетические принципы, проведение экспериментов в различных направлениях – все эти факторы являются характерными особенностями данного исторического периода. Исследование поэзии этого периода проводится в данной диссертационной работе в трех направлениях.

Первая глава носит название **«Новая литературно-общественная среда и современная азербайджанская поэзия».** В первом разделе этой главы исследуется влияние глобальных событий и процессов, происходивших как в постсоветском пространстве, так и во всем мире на развитие современной азербайджанской поэзии, определяется форма их воздействия в различных направлениях, а также анализируются изменения, происходящие в идейно-тематической структуре стихотворения. Автор приходит к выводу, что, в первую очередь, влияние происходит в идейно-смысловом пласте и наблюдается в двух направлениях: стихотворения, созданные на основе фактов, и стихотроруния, созданная на основе впечатления, чувств. Второй раздел первой главы называется **«Поиск идей и смысловая новизна».** В данном разделе происходит частичная конкретизация изменений в идейно-смысловом пласте стихотворения.

Название второй главы **«Новые творческие тенденции в современной азербайджанской поэзии».** Данная глава состоит из четырех разделов. Первый раздел называется «Современная поэзия и «упадническая философия». Этот раздел посвящен исследованию различных художественных групп и творческих тенденций. Проводится тщательный анализ поэзии периода декаданса, модернистской и экспериментальной поэзии (волна неомодернизма), образцов авангардизма и постмодернизма, проводится оценка содержательности поэтической формы. Выявляется тот факт, что несмотря на всю силу, мощь, веру в будущее и новизну идей, которые воплощала в себе поэзия конца 1980-х годов, в первые годы борьбы за независимость, с начала 1990-х годов, все чаще звучат ноты пессимизма, декаданса, главенствуют упаднические настроения. Название второго раздела **«Новые творчески тенденции, литературные группы и авангардная поэзия».** В данном разделе исследуется общественно-политические и социальные условия, создающие возможность возникновения новых творческих тенденций в поэзии конца XX – начала XX1 века. Выявляется ряд литературных групп, анализируется их деятельность. Третий раздел носит название **«Экспериментально-модернистское стихотворение и волна «неомодернизма»** в современной поэзии. В данном разделе анализируется модернистское стихосложение, которое отделилось от авангардного стихосложения, имеющего более эпатажный характер, и его последователи. Четвертый раздел называется **«Первые проявления постмодернизма в современной азербайджанской поэзии».** При тщательном анализе постмодернизма чаще всего выявляются такие качества, как размытость границ между массовой и элитарной культурой, концепция «открытого текста» (У.Эко), «Война со вкусом» (Лиотар), понятие «деконструированного текста» (Ж.Деррида)… и т.д.

III глава носит название **«Система поэтического выражения современного азербайджанского стихотворения».** В первом разделе рассмотрено «Роль традиционных и экспериментальных форм в системе поэтического выражения». Второй раздел называется **«Использование символов и художественных деталей в системе поэтического выражения».** Здесь проводится анализ символов и художественных деталей и их роль в современной поэзии.

В Заключении обобщена выводы, к которым автор пришел в ходе проведенной им исследовательской работы.

**Nargiz Abdullayeva (Jabbarli)**

## The Development Trends of the Current Azerbaijani Poetry (1993-2005)

### SUMMARY

The research subject is the current Azerbaijani poetry created in 1993-2005. It is known that beginning from the late 1980s the struggle for independence, the declaration of state independence, the fact of war, the changes in power and other events have influenced literature and literary process, like all other spheres. The dissertation studies in three aspects the poetry of the period exposed to this influence. The first chapter is titled *The New Literary Social Milieu and the Current Azerbaijani Poetry*. The first subchapter studies *The Impact of the Global Events and Processes on Azerbaijani Poetry*. It analyzes the impact of the events taking place in Azerbaijan, in the former Soviet area as well as in the world, also of the social and political contradictions on Azerbaijani poetry. The subchapter specifies that this impact appears first in the idea-and-content-related stratum and manifests itself in two aspects: the poems created by mentioning the fact and the ones created by describing not the fact but the impression it makes, the feeling it generates. The second subchapter of the first chapter is titled *TheSearches for Idea and the Novelty of Content* which provides more concretization of the changes taking place in the idea-and-content-related stratum of a poem.

The second chapter is titled *The New Trends of Creativity in the Current Azerbaijan Poetry* and consists of four subchapters. The first subchapter here is titled *The Current Poetry and "The Philosophy of Decadence"* which charaterizes the poetry of the period and presents the classification related to the new trends of creativity in Azerbaijani poetry as a decadent poem, advance-guard poem, modernist-experimental poem (the wave of neomodernism) and postmodernist poem. It is stated that in the late 1980s, when the struggle for independence began, the poetry was so enthusiastic, full of confidence in future, acting as a glorifier of the cause, whereas beginning from the early 1990s the mood of pessimism, collapse, decadence began to reign in it. The second subchapter is titled *The New Trends of Creativity, Literary Groups and Avance-guard Poetry* which studies the socio-political and social milieu providing the maturation of the

new trends of creativity that appeared in the late XX century and early XXI century. It identifies the creation of a number of literary groups and the area of their activities. The third subchapter is titled *The Modernist-experimental Poem and the Wave of "Neomodernism" in the Current Poetry* which defines the modern poem derived from the avance-guard poem of epatage nature and its representatives. It is pointed out that modernism has never become a movement with certain boundaries in our literature. The fourth subchapter is titled *The Early Manifestations of Postmodernism in the Current Azerbaijani Poetry* which underlines, while characterizing Postmodernism, the loss of boundaries between the masses and elite culture, the concept of "an open text" (Eco), its appearance as "Tama War"(Liotard), the admission of the text actually as "a deconstructed text" (J.Derrida). The third chapter is titled *The System of Poetic Expression of the Current Azerbaijani Poetry*. The first subchapter deals with *The Role of the Tradition and Experiment in the Formation of the System of Poetic Expression*. The second subchapter is called *The Creativeness of Symbols and Literary Details in the System of Poetic Expression* which studies precisely the place and function of the literary detail in the current poetry.

The **Conclusion** generalizes the findings of the research.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЛИТЕРАТУРЫ им. НИЗАМИ**

*На правах рукописи*

НАРГИЗ МАРДАН кызы АБДУЛЛАЕВА (ДЖАББАРЛЫ)

# ТЕНДЕНЦИИ РАЗВИТИЯ СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ ПОЭЗИИ (1993-2005гг.)

5716.01 - Азербайджанская литература

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание научной степени доктора философии по филологии**

**БАКУ - 2015**